# MÜQƏDDƏS TORPAĞA ŞANLI QAYIDIŞ

***Azad Şuşada Azərbaycanın görkəmli dövlət xadimi, mütəfəkkir, şairə Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunan tədbir və Şuşaya ilk səfərim***



*(Əvvəli ötən sayımızda)*

Zirvələrə təkan verən bu bünövrələrdən biri də Qarabağın ilk hava qapısı olan Füzuli Beynəlxalq Hava Limanıdır. Keçən ilin oktyabr ayında iki qardaş ölkənin - Azərbaycanın və Türkiyənin liderləri cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğan burada Füzuli Beynəlxalq HavaLimanının açılışını etmişdilər. İlk olaraq həmin hava limanına cənab Rəcəb Tayyib Ərdoğanın təyyarəsi eniş etmişdi. Füzuli şəhərinin mərkəzinə çatdığımız zaman Füzuli Beynəlxalq Hava Limanını da yaxından görmək nəsibimiz oldu. Bu qədər dağıntılar içində gördüyüm tək abad yer də hələlik bura idi. Dağıntılar, xarabalıqlar ermənilərin, abadlıq isə Azərbaycanımızın keçmiş və indiki arzusu, amalını əks etdirirdi. Bir tərəfdə qısa müddətdə yaradılmış abadlıq, digər tərəfdə isə yüz illər boyunca vəhşiliklər nəticəsində yaradılmış viranəliklər. Təbii ki,bu qurub yaratmaq eşqi ilə vulkan kimi püskürən Azərbaycanım üçün nə ilkdir, nə son olacaq. Yolboyu mən nə qədər xarabalıqlar görsəm də, bir o qədər də bu torpaqların əsl sahiblərinin yeni qurduğu tikililər, binalar görəcəkdim və bunlar mənim gözümü, qəlbimi oxşayacaqdı.

Tarixi hava qapımız olan Füzuli Beynəlxalq Hava Limanından sonra Füzuli şəhərinin mərkəzindən keçdik. Qarşıda, arxada, sağda və solda gördüyümüz tək şey yalnız xarabalıqdan başqa bir şey deyildi. Füzuli şəhərinin mərkəzi, həqiqətən də insanın qəlbini göynədir, daxilini parçalayırdı. Sanki, bir qəbiristanlıqda idin və bütün ölülər məzarlardan çıxarılmışdı. Füzulinin xarabalıqları çürüyüb sümüyə dönən bir insanın nəşinə bənzəyirdi. Bir vaxtlar Azərbaycanın ən çox turist axını olan, həm kənd təsərrüfatı və sənayesi ilə respublikada öndə gedən, həm də gözəl insanlara, təbiətə malik metropol şəhərlərindən olan Füzulinin xarabalıqları ürəyimi parçalasa da, bunda bir ümid hiss etdim. Fikirləşdim ki, nəzərə almaq lazımdır ki, bir vaxtlar biz bu xarabalığa ancaq KİV-dən, sosial şəbəkələrdən, internetdən baxırdıq, indi isə canlı-canlı bu xarabalığa baxaraq bundan dərs çıxarırıq. Bundan sonra təkcə ümid etməyəcəyik, təkcə arzulamayacağıq, həm də çalışacağıq ki, ruhlar şəhərinə çevrilmiş bu yerlər tez bir zamanda Azərbaycanın göz oxşayan məkanlarından birinə çevrilsin. Prezidentimizin sayəsində biz buna öz varlığımız kimi inanırıq.

Füzuli şəhərindən sonra isə Xocavənd rayonunun Şuşa yolu istiqamətində olan kəndlərinə Zəfər yolumuz ilə hərəkətimiz başladı. Bu səfərimdə məni ən çox sevindirən amil də bu idi. Bildirim ki, ata yurdum Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndi güzəranını 30 il boyunca təmas xəttində mənfur düşmənlə üz-üzə keçirməli olub. Kəndin qurtaracağından sonra bir tərəfdən Ağdam rayonunun Yusifcanlı kəndi, o biri tərəfdən də Xocavənd rayonunun Nərgiztəpə ərazisi başlayır və həmin ərazidə "N" saylı hərbi hissə yerləşirdi. Birinci Qarabağ müharibəsi, habelə Aprel döyüşləri və Vətən müharibəsinə bu yerlər şahid olub. Bu yerlərdə nə qədər Vətən oğlu canını qurban verib. Mən tez-tez kəndə səfər etdiyim zaman kəndin ərazisinin qurtaracağından sonrası, təmas xətti ilə bağlı çox maraqlanardım. Çox istəyərdim ki, tezliklə oralar da azad olsun, həm o yerlərə səfər edək, həm də bu yerlər təmas xətti deyilən müharibə yarasından qurtulsun. Çox şükürlər olsun ki, nəinki biz təmas xəttindən o tərəfə adladıq, şəhidlərimizin canı, qazilərimizin sağlamlığı bahasına hətta bütün Qarabağımızı azad etdik. Bu gün Xocavəndimi azad görəndə yadıma Nərgiztəpə yüksəkliyi düşür və ona göz




aydınlığı verirəm ki, daha yaran sarılıb, daha bu torpaqlar azaddır və sən bir daha müharibə acısı ilə qovrulmayacaqsan!

Xocavənd rayonunun Düdükçü, Məmmədərə, Çiraquz, Xırmancıq, Edilli, Tağavard, Zoğalbulaq, Böyük Tağlar və digər kəndlərindən, gözəl guşələrindən keçdik və cənnət məkan Xocavəndin mənzərəsi sanki bizi bihuş etdi. Onu da deyim ki, havanın çox təmiz və evlərin çox az, demək olar ki, barmaqla sayılası qədər az olduğundan Xocavəndin bu kəndlərindən Şuşanın düz mərkəzi, həmçinin gözəl Cıdır düzü yüksəklikdən baxanda uzaqdan da görünürdü. Elə o gün Vətən müharibəsi zamanı yaşadığımız günlərə xəyalən qayıtdım. 2020-ci ilin oktyabr ayının 20-dən etibarən artıq Xocavənd-Şuşa istiqamətində döyüşlərə başlanılmışdı. Oktyabrın son günlərində azad etdiyimiz kəndlər Şuşaya yaxın olduğundan artıq hisslərimizə inanmışdıq ki, Şuşanı azad edəcəyimiz gün yaxındır. Həmin günlərdə belə bir şüar yarandı və bütün dillərdə əzbər oldu: "Biz Şuşaya nəfəs qədər yaxınıq!" Mən həmin anlarda bir daha Şuşaya nəfəs qədər, nəfəsdən də yaxın olmağın sevincini və qürurunu yaşadım və bir daha özümdə Şəhidlərimizə, Qazilərimizə və Ali Baş Komandana borcluluq hiss etdim.

Qarabağ içi xəzinələrlə dolu böyük bir sandıqdır. Şuşanı mən bu xəzinənin içindəki ən qiymətli almaz hesab edirəm. Bu almaz bizim qismətimizdir və bu almazı bundan sonra heç kəs bizdən ala bilməyəcək! O, bizim qəlbimizdədir, o, bizim göz bəbəyimizdir və biz onu gözümüz kimi qoruyacağıq!

Xocalı rayonunun Çanaqçı, Sığnaq, Şuşakənd və Muxtar kəndlərində olanda sevincimin heç həddi-hüdudu olmadı. O an içində olduğum bu cənnət məkan ərazinin Xocalı olduğunu bilərək, dərk edərək qürurlandım. Bu dərk, bu qürur prosesində beynim sanki Xocalı soyqırımının içindən keçdi və o cəlladları tapıb Xocalının ərazisindən Şuşaya aparan yol hissəsində onların üzərində Zəfər çaldı. Bu cəlladlar qara bulud kimi beyinlərdə dolaşan pis, iblis fikirlər kimi idi. Mən Xocalı rayonunun o kəndlərinə çatanda böyük qayıdışın təntənəsini hiss etdim. Bu böyük qayıdış həm də Xocalının qisası demək idi.

"Möhtəşəm zəfərin nişanəsi" adlı kitabımda yer almış "Ata, ruhun şad oldu" adlı şeirimdə "Xocalıdan sonra biz axır çatdıq Şuşaya" misrasını Prezidentimizin adından dediyim zaman mən bunu nəzərdə tuturdum, bundan danışırdım. Axır ki, Xocalıdan sonra əsas məqsədimizə, əsas amalımıza, illər boyu qəlbimizdə gəzdirdiyimiz,



gerçəkləşməsini gözlədiyimiz, uğrunda canımızı verməkdən çəkinmədiyimiz və hətta canımızı əsirgəmədən fəda etdiyimiz o gözəl arzuya çatdım. Bu arzunu mən illərlə bütün qəlbimlə arzulamış və bunu şeirlərimin hər kəlməsinə hopdurmuşdum. Təsadüfi deyil ki, 2017-ci ildə qələmə aldığım, 2018-ci ildə çap edilmiş "Hərdən uçmaq istəyirəm" adlı kitabımda yer almış "Təsəvvür edirəm ki..."adlı şeirimin "Təsəvvür edirəm ki, Qarabağ azad olub"misrasını xatırladım və bildim ki, artıq həmin anlar xatirəyə çevrilib. Bu təsəvvürlərin gerçəkləşdiyi günü də həmin vaxtlar mən "Dirilişin, Zəfərin nişanəsi" adlandırmışdım. Mən elə o gündən Möhtəşəm Zəfərin nişanəsinin özündəydim, mən onun daxilində, o, isə mənim qəlbimin özəyində yuva qurmuşdu. O gün sanki mən Zəfər yolunda Zəfər gününü yenidən yaşadım. 9 sentyabr sanki məni 9 noyabra apardı, hansı ki "Zəfərin nişanəsi" adlı şeirimi mən həmin gün yazmışdım. Necə ki o gün də arzularım gerçəkləşmişdi, bu gün də gerçəkləşir və indən belə Uca Allahın köməyi ilə həmişə də gerçəkləşəcək. Vətən müharibəsində qazandığımız Zəfərdən bəri keçən hər gün sanki bizə Zəfər günüdür və hər yeni gün bizi yeni-yeni arzulara, zəfərlərə, yüksəlişə yaxınlaşdırır və onları gerçək edir.

Daşaltıdan keçdiyimiz zaman mənə elə gəldi ki, Daşaltının köksümüzü qabardan o uca zirvəsində Şəhidlərimiz dayanıb, hansı ki 30 il əvvəl bu dağlarda o igid qəhrəmanlar düşmənin və düşmən xislətlilərin hiyləgər, məkrli bir planı əsasında qurulmuş tələyə qurban getmişdilər və xəyanət nəticəsində bu dünyadan köçmüş, Şəhidlik zirvəsinə ucalmışdılar. Həmin o xəyanətdən, o faciədən sonra ötən 30 il idi ki, həmin qurbanların ruhları bu yerlərdə bizdən gileyli, küsgün gəzirdi, dolaşırdı, cövl edirdi, qisaslarının alınacağı günü gözləyirdi. İndi isə o ruhlar sanki dilə gəlirdi və azad Şuşanın azad Cıdır düzündən əsən Xarı bülbül ətirli küləklər onların dilindən bizə "xoş gəlmisiniz" deyirdi. Bu məni olduqca çox sevindirirdi, çünki havanın bir az tutqunluğunda belə xüsusi bir gözəllik var idi. Daşaltı yollarında avtobusumuzda Milli Qəhrəmanımız şəhid Riad Əhmədovdan da söz düşdü. Onun qəhrəmanlığından danışaraq onu bir daha yad etdik, qürurla andıq, ruhuna dua oxuduq, Onunla bərabər Daşaltı şəhidlərini və bütün Şəhidlərimizi qürurla andıq, onlara bir daha Allahdan rəhmət dilədik. Demək olar ki, bütün yolboyu biz qanları, canları bahasına bizə bu günü bəxş edən şəhidlərimizə həm dilimizdə və həm də qəlbimizdə, ürəyimizdə rəhmət oxuduq.

Bir insan sonunun ən ağır məhrumiyyət olan ölüm olduğunu bilə-bilə o yolda necə yeriyə bilər? Bilə-bilə ki, gerçəkləşdirdiyi arzunun meyvəsini özü yox, başqaları dərəcək, onda yenə də bu yolu son damla qanına qədər əzmlə necə davam etdirə bilər? Bəli, dünyaya göz açandan dünyadan köç edənədək bu amal üçün yaşayan insanlar var. Bunu ancaq fədai və Şəhid olmaq üçün doğulan insanlar edə bilər. Necə ki bizim vətən fədailərimiz, Şəhidlərimiz bunu etdi. Onlar bu dünyada gerçəkləşdirdiyi arzunun meyvəsini, gördükləri zəhmətin bəhrəsini dada bilmədilər, ancaq o biri dünyada bu səadətə qovuşdular, Zəhmətlərinin əvəzini əkib qanları ilə suladıqları ağacların dadlı meyvələrinin ətrini Cənnətin ən gözəl bucağında qoxladılar. Biz ayaq basdığımız bu Vətən torpağında, təkcə orada yox, olduğumuz hər bir yerdə Şəhidlərimizə, Qazilərimizə borcluyuq. Çünki bir Vətənin keşikçisi, fədaisi olmasa, elə bircə anda onu ətrafında pusquda dayanmış çaqqallar üzük qaşı kimi əhatəsinə alar və hərəsi bir tərəfdən çəngəlini batırıb sanki yemək bölürmüşcəsinə bölərlər. Lakin Vətən övladları bir olduğu zaman el məsəlində deyildiyi kimi dağı yerindən oynadar.

Necə ki Şəhidlərimiz, qazilərimiz və müharibə iştirakçılarımız o gün ayağımı basdığım o müqəddəsləşmiş torpaqlarda bunu etdilər.

*(Davamı var)*

Sevindik Nəsiboğlu